# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AZ1122 Bakı şəhəri,
H.Zərdabi küç, 96

Tel: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçt: office@isim.az http://www.isim.az

"___" __________2015-ci il №_________

**ƏMR № 219**

**Bakı şəhəri** **14 iyul 2015-ci il**

**"Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.3-cü bəndinin icrası məqsədi ilə "Hamiləliyin ağırlaşması və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibi" metodikasının Azərbaycanda tətbiqinə dair tədbirlər barədə"**

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2014-cü il tarixli 550 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının (2014-2018-ci illər)" 6.3-cü bəndinə uyğun olaraq doğuşa yardım tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinin davamlı monitorinq və qiymətləndirmə sisteminin yaradılması və həyata keçirilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən hazırlanmış "Hamiləliyin ağırlaşması və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibi" metodikasının Azərbaycanda tətbiqi ilə bağlı tədbirlər həyata keçirilsin:

1.1. Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu (ETMGİ) ilə əməkdaşlıqda ÜST tərəfindən hazırlanmış "Hamiləliyin ağırlaşması və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibi" metodikası (alət və əlavə təlimatlarla) tərcümə, redaktə və adaptasiya olunsun.

1.2. ETMGİ ilə əməkdaşlıqda beynəlxalq mütəxəssisin iştirakı ilə Bakıda 25-30 milli mütəxəssis, o cümlədən gələcək təlimçilər/təlimatçılar üçün həmin metodika üzrə 3 günlük sınaq təlim kursu təşkil edilsin.

1.3. ETMGİ ilə əməkdaşlıqda və təlimlərdə iştirak etmiş mütəxəssislərin iştirakı ilə Bakıda fəaliyyət göstərən müvafiq tibb müəssisəsinin bazasında hamiləliyin ağırlaşmaları və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibinə dair nümunəvi praktikum təşkil edilsin.

2. Əmrin 1-ci bəndində qeyd olunan tədbirlərin təşkili və keçirilməsi üçün İş Planı təsdiq edilsin (əlavə olunur).

3. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, Əmrin 1-ci bəndində qeyd olunan tədbirlərin təşkili və keçirilməsi üçün İş Planına uyğun xərclərin smetası tərtib edilsin və həmin smeta üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.

4. Əmrin 1-ci bəndinin icrası ilə bağlı işlərin təşkili və həyata keçirilməsinə nəzarət, eləcə də bu barədə məlumatın verilməsi Səhiyyə siyasəti və islahatlar şöbəsinin meneceri Nabil Seyidova tapşırılsın.

5. Əmrin icrasına nəzarət direktorun müavini Rahib Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

İctimai Səhiyyə və İslahatlar
Mərkəzinin direktoru
cənab Ceyhun Məmmədova

**MƏLUMAT**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 13 iyun 2014-cü il tarixli 550 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2014-2018 -ci illər)"nın 6.3. bəndinə əsasən Doğuşa yardım tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinin davamlı monitorinq və qiymətləndirmə sisteminin yaradılması və həyata keçirilməsi Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinə (İSİM) həvalə edilib. Davamlı monitorinq və qiymətləndirmə sisteminin təkmilləşdirilməsi məqsədilə ÜST tərəfindən hazırlanmış "Hamiləliyin ağırlaşmaları və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibi" metodikasının Azərbaycanda doğuşa yardım tibb müəssisələrində tətbiqi məqsədəuyğun hesab edilir.

Həmin metodikanın Azərbaycanda tətbiqi üçün aşağıdakı fəaliyyətlərin İSİM tərəfindən 2015-ci ilin sonunadək icrası təklif olunur:

a) ETMGİ ilə əməkdaşlıqda Ümumdünya Səhiyyə Təşkilatın tərəfindən hazırlamış və tətbiq üçün tövsiyə edilmiş "Hamiləliyin ağırlaşmaları və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibi" metodikasının (alət və əlavə təlimatlarla) tərcüməsi, redaktəsi və adaptasiyası,
b) Yuxarıda qeyd edilmiş vəsait əsasında ETMGİ ilə əməkdaşlıqda beynəlxalq mütəxəssisin iştirakı ilə Bakıda 25-30 milli mütəxəssis, o cümlədən gələcək təlimçi-instruktorlar üçün üç-günlük sınaq təlim kursunun təşkili,
c) ETMGİ ilə əməkdaşlıqda və yuxarıda qeyd edilmiş təlimlərdə iştirak etmiş mütəxəssislərin iştirakı ilə Bakıda fəaliyyət göstərən doğum evi və ya Respublika Perinatal Mərkəzinin bazasında hamiləliyin ağırlaşmaları və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibinə dair nümunəvi praktikumun təşkili,
d) Yuxarıda göstərilən tədbirlərin yekun nəticələrinin müzakirəsi və adaptasiya olunmuş metodikanın və yardımçı təlimatların sonrakı geniş tətbiqinə dair planların müzakirəsi.

Fəaliyyətlərin icrasına dair tədbirlər planı əlavə edilir.

**Səhiyyə Siyasəti və İslahatlar**
**şöbəsinin müdir əvəzi** **Nabil Seyidov**
**14.07.2015**

**"Hamiləliyin ağırlaşmaları və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibi" layihəsi üzrə Tədbirlər Planı**

| Tədbir | Tarix | Məsul şəxslər |
|---|---|---|
| İşçi qrupunun yaradılması və görüşlərinin təşkili: SN TTYŞ, İSİM, ETMGİ, Respublika Perinatal Mərkəzi | İyul -Avqust | Beynəlxalq ekspert<br>TTYŞ<br>N. Seyidov<br>T.Cəmilova<br>Təsdiqlənəcək(RPM)<br>Təsdiqlənəcək (ETMGİ) |
| Ümumdünya Səhiyyə Təşkilatının hazırladığı və tətbiq üçün tövsiyə edilmiş "Hamiləliyin ağırlaşmaları və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibi" metodikasının (alət və yardımçı təlimatlar) tərcüməsi, redaktəsi və adaptasiyası | Avqust-Sentyabr | Podratçı<br>Beynəlxalq ekspert<br>N. Seyidov<br>T.Cəmilova<br>Təsdiqlənəcək (RPM)<br>Təsdiqlənəcək (ETMGİ) |
| ETMGİ, Respublika Perinatal Mərkəzi ilə əməkdaşlıqda ÜST-nin dəvət etdiyi beynəlxalq mütəxəssisin iştirakı ilə Bakıda 25-30 milli mütəxəssis (gələcək təlimçi-instruktorlar) üçün üç-günlük təlim kursunun təşkili | Oktyabr | İSİM<br>ÜST |
| Bakıda fəaliyyət göstərən doğum evi və ya Respublika Perinatal Mərkəzin bazasında hamiləliyin ağırlaşmaları və ya hamiləlikdə həyata təhlükə törədən halların təqibinə dair nümunəvi praktikumun təşkili | Noyabr | N. Seyidov<br>T.Cəmilova<br>Təsdiqlənəcək (RPM)<br>Təsdiqlənəcək (ETMGİ) |
| Yekun nəticələrinin müzakirəsi və hazırlanmış və adaptasiya olunmuş metodikanın və yardımçı təlimatların geniş tətbiqinə dair planların dəyirmi masada müzakirəsi. | Dekabr | İSİM<br>ETMGİ<br>RPM<br>ÜST |